# "AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun
hazırlanmış Konsolidasiya edilmiş Maliyyə Hesabatları
və **Müstəqil Auditorların Rəyi**

**31 dekabr 2016-cı il tarixində bitən il üzrə**

## AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİNƏ GÖRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİ HAQQINDA BƏYANAT
### 31 DEKABR 2016-CI İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

Aşağıdakı bəyanat, 2 və 3-cü səhifələrdə göstərilmiş müstəqil auditorların rəyində auditorların vəzifələri haqqında müddəalarla birgə oxunmalıdır və "AzFinance İnvestisiya Şirkəti" QSC və onun törəmə müəssisəsinin (bundan sonra-Qrup) maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Qrupun 31 dekabr 2016-cı il tarixində bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") əsasən müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Qrupun normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Qrupun daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Qrupun maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2016-cı il tarixində bitən il üzrə maliyyə hesabatları Qrupun Rəhbərliyi tərəfindən 27 aprel 2017-ci ildə təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

**Cənab Abid Mamedov**
**Direktor**

27 aprel 2017-ci il
Azərbaycan Respublikası, Bakı

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ AZFİNANCE İNVESTİSİYA ŞİRKƏTİ CLOSED JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**Xanım Xuraman Zülalova**
**Baş Mühasib**

27 aprel 2017-ci il
Azərbaycan Respublikası, Bakı